**Hər bir xalqın özünəməxsus qəhrəmanlıq simvolları var. Qəhrəmanlıq, vətən uğrunda sonsuz igidlik çox xeyirxah bir əməl olub xalqın şüurunda daim yaşayır. Azərbaycan xalqı tarix boyu bir çox qüdrətli sərkərdələr yetişdirib. Bütün cəbhələrdə gedən vuruşmalarda Azərbaycan oğulları misilsiz qəhrəmanlıq, böyük sərkərdəlik məharəti göstərmişdilər. Öz qəhrəmanlarını sevmək və onlara ehtiramla yanaşmaq Azərbaycan xalqının ən gözəl ənənələrindən biridir.**



# Qürbətdə yazılan qəhrəmanlıq salnaməsi

Tarix heç vaxt məhv olub, itə bilməz. O, bir güzgü kimi bütün keçmiş hadisələri əks etdirir. XX əsrin ən dəhşətli səhifəsi hesab edilən Böyük Vətən Müharibəsini xalqımızın Vətən qarşısında verdiyi imtahan dövrü adlandırsaq yanılmarıq. İkinci Dünya müharibəsi sovet xalqının öz azadlıq və istiqlaliyyəti uğrunda apardığı ədalətli müharibə idi. Bu müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayanmışdılar. Bu müharibə çox böyük insan kütlələrini amansız silahlı mübarizəyə cəlb etmişdi. Azərbaycan xalqının mərd oğulları vətəni müdafiə edənlərin ön cərgəsində gedərək, azadlıq uğrunda, haqq-ədalət naminə vuruşmuşdular. Tarix heç zaman bu qədər dağıdıcı və ağır müharibə görməmişdi.

Azərbaycan xalqı sülhsevər xalqdır. Böyük Vətən müharibəsində xalqımız Hitler faşizminə qarşı müharibədə sülhsevər xalq kimi tarixi qələbənin əldə olunmasında sülhü, əmin-amanlığı qorumaq, bəşəriyyəti faşizmdən xilas etmək üçün igidliklə vuruşmuş, qəhrəmanlıq xarüqələri yaratmışdır. Sovet hökuməti hər zaman Azərbaycanın oğul və qızlarının əmək qəhrəmanlığını, döyüş igidliyi və mərdliyini yüksək qiymətləndirmişdir.

Hərb tariximizdə adları ilə fəxr etdiyimiz bir çox hərbi xadimlərimiz olub. Tarixin ən böyük müharibəsi olan İkinci Cahan savaşında xalqımızın adına ən yüksək hünər göstəriciləri qazandırmış qəhrəmanlardan biri də baş serjant Əvəz Həşim oğlu Verdiyevdir.

Əvəz Verdiyev 1916-cı ildə Laçın rayonunun Quşçular kəndində anadan olmuşdur. Üç yaşından atasını itirmiş və Laçın rayonunun Quşçular kəndində böyüyüb boya-başa çatmışdır. Əvəz atasını itirəndən sonra babası Rüstəm kişinin himayəsində yaşamışdır. O,1936-cı ildə Bakıya gələrək fəhlə gənclər məktəbində oxuya-oxuya Orconikidze adına maşınqayırma zavodunda işləmişdir.

Xalqımızın igid oğlu 1938-ci ildə Sovet Ordu sıralarına çağırılmışdır. Əvəz orduya gələrkən möhkəm iradəli, dərin düşüncəli və intizamlı bir gənc kimi yetişmişdir.

Qəflətі qara buludlar keçmiş SSRİ-nin dövlət sərhədlərinin üzərində görünməyə başladı. O zaman Əvəz Verdiyev Qərbi Belarusiyanın azad olunmasında iştirak etmişdi. O. döyüşlərdə yetkinləşdi, mətinləşdi. Əvəz Verdiyev 1939-1940-cı illərdə Finlandiya müharibəsində vuruşaraq, bacarıqlı döyüşçü kimi şöhrət qazanmışdır.

Xalqın qəhrəman övladı Əvəz 1940-cı ildə əsgəri xidməti başa vurub, ordudan tərxis olunmuşdur. Lakin İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar 1941-ci ilin iyun ayında yenidən orduya çağırılmışdır. İlk dəfə Rostov ətrafında öz dəstəsi ilə döyüşlərdə iştirak edərək, onun yaxınlığında çox böyük dövlət əhəmiyyətli tikilini qorumaq tapşırığı almışdır. Əvəz Verdiyev strateji əhəmiyyəti olan bu məntəqənin müdafiəsi zamanı on nəfərdən artıq faşisti məhv etmiş, düşmənə gözlənilmədən həmlələr etmişdir. Bu vuruşmada xalqımızın fəxri olan Əvəz Verdiyev və onun cəsur döyüşçüləri çoxlu qənimət ələ keçirmişdilər. Şiddətli döyüşlər zamanı Əvəz ağır yaralanmışdır. O, müalicə olunub, sağaldıqdan sonra tezliklə ön cəbhəyə qayıtmışdır.

Baş serjant, Avtomatçılar bölməsinin komandiri Əvəz Verdiyev Xarkov, Orlov şəhərlərinin, Droqoviç, Nikolayev, Zoloçev rayonlarının azad edilməsində və Lvov ətrafındakı döyüşlərdə əsl qəhrəmanlıq göstərmişdir.

1944-cü il iyulun 14-də Birinci Ukrayna cəbhəsinin qoşunları güclü hücuma başlamışdı. Bu vaxt 55-ci briqada ön sıralarda idi. Sovet qoşunları bir neçə gün ərzində Qərbə doğru hərəkət etdilər. Onlara qarşı göstərilən şiddətli müqavimətə baxmayaraq, hücumları davam etdirmişdilər. Nəticədə Lvov şəhərindən şimalda müdafiə mövqeləri yaradılmışdı.

Kulikova yaşayış məntəqəsində almanların xeyli sayda qüvvəsi cəmlənmişdi. Baş serjant Əvəz Verdiyev öz bölməsini həmin ərazidən çıxarıb düşmən mövqelərinə hücuma keçdi. Şiddətli döyüşlər zamanı iki düşmən pulemyotu sıradan çıxarılmış, minaatan batareyası ələ keçirilmiş, düşmənə ciddi itkilər yetirilmişdi.

1944-cü il avqustun 2-də xalqımızın cəsur övladı Əvəz Verdiyevin dəstəsi leytenant Andrey Serafimovun tankı ilə birlikdə Staşuv şəhərinə hücuma keçmişdi. Yerli sakinlər heyranlıqla onlara kömək etdi. Hər kəsin gözü qarşısında Əvəz Verdiyev və Serafimov şəhər ratuşasının ən hündür nöqtəsinə qalxaraq qırmızı bayrağı oraya sancmış və dərhal aşağı atılmışdılar. Onlar qaçmağa çalışan 2 hitlerçini əsir götürərək briqadaya təslim etmişdi. Döyüş qurtardıqdan sonra briqada şəhərə daxil olanda üzərində döyüşün izlərini əks etdirən al bayraq səmada əzəmətlə dalğalanırdı.

Baş serjant Əvəz Verdiyev Polşanın Staşuv şəhəri uğrunda gedən döyüşdə göstərdiyi qəhrəmanlığa görə 1944-cü il sentyabrın 23-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. O, Vətən üçün, xalq üçün öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirmişdir. Əvəz Vətən qarşısındakı xidmətlərinə görə "Qızıl ulduz" medalı və Lenin Ordeni ilə təltif edilmişdir.

1944-cü il avqust ayının axırları idi. Staşa şəhəri ətrafında qızğın döyüşlər gedirdi. Staşa şəhərini düşməndən azad etməkdən ötrü çox ciddi hazırlıq görülmüşdü. Bu şəhərdə düşmənin çoxlu canlı və texniki qüvvəsi yerləşirdi. Komandanlığın əmri ilə şəhərə kəşfiyyat dəstəsi göndərilmişdi. Əməliyyatda Əvəz Verdiyev xüsusilə fərqlənmişdir. Bu kəşfiyyat əməliyyatı baş serjant Əvəz Verdiyevin başçılıq etdiyi dəstəyə tapşırılmışdı. Onlar hər dəqiqə ölümlə qarşılaşırdılar. Atalar yaxşı deyib: "İgiddən güllə də qorxar". Kəşfiyyat müvəffəqiyyətlə başa çatdıqdan sonra şəhərə hücum başlanır. Qızğın vuruşmadan sonra Staşa şəhəri və onun ətrafında olan Osik kəndi faşistlərdən təmizlənir. Təkcə bu döyüşlərdə cəsur döyüşçü, baş serjant Əvəz zirehdələn silahı ilə düşmənin canlı qüvvələrinə və texnikasına vurduğu ağır zərbədən başqa 13 alman əsgər və zabitini əsir götürür.

Onun şux zarafatları hər zaman cəbhə dostlarının xoşuna gələrdi. Ağır döyüşlərdən sonra bu, onlara daha da güc-qüvvət verirdi. O, vaxtlar hərbi hissənin polkovniki olmuş, sonralar general-leytenant rütbəsinə qədər yüksəlmiş, iki dəfə Sovet İttifaqı qəhrəmanı D.A.Draqunski və Motorlu atıcı batalyonun komandiri mayor Stalnenko da xatirələrində cəsur və bacarıqlı döyüşçü Əvəz Verdiyevin qəhrəmanlığından yazmışdır.

1944-cü ilin payızında Sovet ordusunun döyüş qələbələri gündən-günə artmaqda idi. Hər zaman olduğu kimi Azərbaycan xalqının qəhrəman övladları döyüşlərdə göstərdikləri sücaətə görə fərqlənmişdilər. Ukraynanın azad edilməsindən sonra qoşunlar Polşa istiqamətində irəliləyərək Visla çayı sahilindəki Baranib-Sandomerski şəhərini düşməndən azad etdilər. Əvəz Verdiyevin bu döyüşlərdəki fədakarlığı tarixin qəhrəmanlıq səhifələrinə yazılmışdır. Təəssüf ki, növbəti döyüşlərin birində ağır yaralanmış qəhrəmanımız 1945-ci il mayın 1-də vəfat etmiş və Polşanın Boleslaves şəhərində qardaşlıq qəbiristanlığında dəfn olunmuşdur.

Onun igidliyi əbədi məşəl kimi gələcək nəsillərin qəhrəmanlıq yollarına nur səpir, xalqımızın qəlbində daim yaşayır.

Qəhrəman kimi həlak olan Əvəz Verdiyevin xatirəsini əbədiləşdirmək məqsədilə Laçın şəhərində orta məktəbə, küçəyə, həmçinin anadan olduğu Quşçular kəndinə və Səfiyan kənd sovxozuna Əvəz Verdiyevin adı verilmişdir. Laçında orta məktəbin qarşısında onun əzəmətli heykəli, sovxozun idarə binasının önündə isə büstü ucaldılmışdır. Bakı şəhəri Suraxanı rayonu, Bülbülə qəsəbəsində də qəhrəmanımızın adını daşıyan küçə vardır.

Azərbaycanın İkinci Dünya müharibəsindəki rolu tarixi və mənəvi baxımdan çox böyükdür. Həm ön cəbhədə döyüşən qəhrəmanların, həm də arxa cəbhədə çalışan xalqın fədakarlığı sayəsində Azərbaycan qələbəyə əvəzsiz töhfə vermişdir. Bu illər Azərbaycan xalqının birliyi, dözümlülüyü və vətənpərvərliyi ilə yadda qaldı.

"Tarix Azərbaycan Respublikasının İkinci Dünya müharibəsində xidmətlərini və rolunu heç vaxt unutmamalıdır", - deyən ulu öndər Heydər Əliyev müharibə veteranlarına hər zaman xüsusi hörmətlə yanaşmış, onları xalqımızın "Qızıl Fondu" adlandırmışdı.

Bu gün də İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri yaddaşlardan silinmir, bu qəhrəmanlıq gənc nəslə vətənpərvərlik nümunəsi kimi xatırlanır. Vətənini, xalqını, torpağını sevən, bu yolda mərdliklə vuruşanlar həyat durduqca yaşayacaqlar.

Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Xalqımızın bu qəhrəmanlıq tarixi, zəfər çələngi əsrlərdən-əsrlərə, nəsillərdən nəsillərə keçəcək.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin də vurğuladığı kimi, bu irs gələcək nəsillərə çatdırılmalı və Azərbaycanın İkinci Dünya müharibəsindəki töhfələri tanınmalıdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi hörmətli Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev xalqımızın tarixinə bu gün də bir-birindən parlaq səhifələr yazır.

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı, Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*